# Təkfir mövzusuna izahlar və təkfirçilərə cavablar

**Əlhəmdulilləhi rabbil aləmin, va salləllahu alə nəbiyyinə Muhammədin va alə əlihi va sahbihi va səlləmə təsliman kəsirəh. Va bə`d:**

**Bəzi qardaşlar kafiri təkfir etməyən özü kafirdir-qaydası haqda qısa şəkildə əlavə izah gətirməyimi xahiş elədilər. Ümumiyyətlə "kafiri təkfir etməyən özü kafirdir" qaydası, edilən küfrün yaxud şirkin küfr və şirk olduğunu qəbul edib lakin küfrə və şirkə düşmüş bəzi şəxslərə cəhaləti üzr gətirən adama şamil edilirmi? Bu suala cavab veriləcək. Allahdan müvəffəqiyyət diləyərək deyirəm:**

**Əvvəla onu bilmək lazımdır ki, həmin qaydanı doğru anlamaq üçün qaydanın istifadə yönlərini və hökmün illətini bilmək mütləq lazımdır. Üstəlik sələfin təkfir mövzusunda üsullarını bilməyən və onların tətbiqatına nəzər yetirməyən şəxsin elmsiz danışıb sapıqlığa düşməsi qaçınılmazdır. Ələxsus da, hal-hazırda elm adına saxtakar cahillər danışırlar. Görə bilərsən ki, elm iddiasında olan cahil Quran ayələrini oxuyub ayələrdən müxtəlif istinbatlar, hökmlər çıxardır və bunun əsasında insanları küfrdə və sapıqlıqda ittiham edir. Əslində isə müsəlmanın belə saxtakarlığa aldanmaması və öz dinini belə adamlara etibar etməməsi gərəkdir.**

**Əhli-Sünnə bütün məsələlər üçün qaydalar təyin etmişdir. Buna əsasən Əhli-Sünnənin qatında əsli kafirlərin yaxud küfrünə dair alimlərin icma etdikləri müəyyən şəxslərin və ya mürtəd tayfaların təkfirində duran şəxslə, İslama mənsub olan bəzi mürtədlərin təkfirində duran şəxsin hökmü fərqli olmuşdur.**

**Əsli kafirlər isə yəhudilər, nəsranilər, məcusilər və İslam dinini qəbul etməyən digər tayfalardır.**

**Uca Allah buyurur:**

**و من يبتغ غير الاسلام دينا فلن يقبل منه و هو في الآخرة من الخاسرين**

***"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."***

**Bu ayə İslamdan başqa dinə mənsub olan insanların kafir olduqlarını açıq ifadə edir. Həmçinin yəhudilərin, nəsranilərin və digər tayfaların da, kafir olduqları digər nasslarda açıq bəyan edilir. Buna əsasən kim əsli kafirləri təkfir etməsə, nassları yalanladığı səbəbdən kafir olur.**

**Nasslarda adları ilə kafir olduqları qeyd olunan adamlar misal üçün, Firon, Haman, əbu Ləhəb, Əbu Cəhl və digərlərini təkfir etməyən şəxs də, kafir olur.**

**Həmçinin küfrünə alimlərin icma etdikləri adamlar. Misal üçün alimlər Museylimənin yaxud İbn Arabinin kafir olmasına icma etmişlər. Kimə bu icma çatandan sonra onu təkfir etməsə, özü də kafir olur.**

**Habelə icma ilə kafir olan firqələr. Misal üçün nuseyrilər, duruzlar, cəhmilər və digər küfr tayfaları. Kim bu tayfaların küfrlərini biləndən sonra həmin tayfaları təkfir etməsə, özü kafir olur. Lakin küfr tayfalarını təkfir edib onların bəzi avamlarında dayanmaq, tamamilə fərqli məsələdir və bəzi müəyyənlərdə dayanan şəxsin ümumi olaraq həmin tayfaları təkfir etmədiyini ifadə etməz. Belə ki, Əli Xudeyr "Nəvaqidul isləm" kitabının şərhində buyurur:**

**"O kəslər ki, onlar barədə ixtilaf düşmüşdü. Misal üçün cəhmiyyələr kimi küfrə düşmüş bidətçi tayfaların avamları. Əgər insan onların halını və dəlillərin onların kafir olmalarına dəlalət etdiyini bilsə onları təkfir etməsi vacibdir. Əgər təkfir etməsə İslamı pozan amil ona uyğun gələcək.**

**Ancaq əgər onların avam olmaları yaxud onlarda təvilin olması yaxud onların məsələləri qarışdırmaları yaxud onların cahil olmaları kimi təkfirə əngəl olan bir şeyin olduğuna görə bir adamın qatında onların kafir olmadıqları daha üstün hesab edilsə, bu halda həmin şəxsləri (yəni küfr tayfalarının avamlarını təkfir etməyən şəxsləri) təkfir etmək icazəli deyil və İslamı pozan üçüncü amil onlara uyğun gəlmir (onları şamil etmir)."**

**Bir sözlə, icma ilə dindən çıxardan əməli edən İslama mənsub bəzi müəyyənlərin, etdiklərinin küfr və şirk olduğunu qəbul etdiyi halda təkfir üçün maneə görüb onların təkfirində duran şəxs, alimlərin yekdilliyi ilə nassları yalanlamış hesab edilmir və buna irəlidə nümunələr göstəriləcək. Çünki qeyd edildiyi kimi, bu qaydada gələn təkfir hökmünün illəti nassları**

**yalanlayıb onu rədd etməkdir. Beləsi haqda isə onun nassları rədd etdiyi deyilməz. Çünki həmin şəxs əməlin dindən çıxardan küfr və şirk olduğunu qəbul edir lakin təkfir hökmünü müəyyən şəxsə endirmək üçün maneə gördüyündən dolayı təkfirdə dayanır.**

**Ümumiyyətlə "kafiri təkfir etməyən özü kafirdir" hökmünün illətini bilmək lazımdır.**

**Belə ki, məşhur hənbəli alimi Mənsur bin Yunus əl-Buhut "Kəşşəful qinə" kitabında buyurur ki:**

**من لم يكفر من دان بغير الإسلام كالنصاري و اليهود أو شك في كفرهم أو صحح مذهبهم فهو كافر لأنه مكذب لقوله تعالي : و من يبتغ غير الإسلام دينا فلن يقبل منه و هو في الآخرة من الخاسرين**

**"Kim İslamdan qeyri dinə, məsələn yəhudilik və nəsranilik dininə boyun əyərsə yaxud onların küfründə şübhə edərsə yaxud onların yolunu doğru sayarsa, o kafirdir. Çünki beləsi Uca Allahın bu ayəsini yalanlamış olur: *"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."***

**Buhutinin gətirdiyi bu ayə açıq şəkildə göstərir ki, İslamdan başqa dinə yaxud dinlərə mənsub olanlar və o dinlərə boyun əyənlər kafirdirlər və İslamdan başqa dinlərə mənsub olanları təkfir etməyən şəxs Allahın bu ayətini, həmçinin açıq-aydın olan digər ayələri yalanlamış olur.**

**Həmçinin maliki alimi Qadı əl-İyad "əş-Şifə" kitabında məsələyə izah gətirərək buyurur:**

**و لهذا نكفر من لم يكفر من دان بغير ملة المسلمين من الملل أو وقف فيهم أو شك أو صحح مذهبهم و إن أظهر مع ذلك الإسلام و اعتقده و اعتقد إبطال كل مذهب سواه فهو كافر بإظهاره ما أظهر من خلاف ذلك**

**"Buna görə də, İslam dinindən qeyrisinə boyun əyən kimsələri təkfir etməyəni yaxud onların küfründə duranı və ya şübhə edəni yaxud onların yolunu doğru sayanı təkfir edirik. Hətta (onları təkfir etməyən) insan bununla birgə İslamı izhar etsə, onu etiqad etsə və ondan savayı olan bütün yolların ibtal olduğunu etiqad etsə, beləsi izhar etdiyinin əksini izhar etməsilə kafir olur."**

**Yəni İslamdan başqa dinlərə mənsub olanları təkfir etməməsi ilə kafir olur.**

**Sonra bunun səbəbini qeyd edib buyurur:**

**لقيام النص و الإجماع علي كفرهم فمن وقف في ذلك فقد كذب النص**

**"Çünki onların küfrünə dair nass və icma mövcuddur. Buna görə əgər biri bu məsələdə dayansa nassı yalanlamış olacaq."**

**Habelə Nəvəvi "Raudatut talibin" kitabında buna yaxın sözlər qeyd edir.**

**Elm əhlinin qeyd etdikləri "nass" kəlməsi isə, Quran və Sünnədə gələn açıq-aydın bir dəlilə deyilir. Alimlər deyirlər ki: Nass, yalnız bir mənanı ifadə edən şeydir. Yəni heç bir ehtimalın daxil olmadığı sözlərdir. Buna görə İslam dinindən başqa dinə mənsub olanların yaxud həmin dinlərə boyun əyənlərin, təslim olanların kafir olması Quran və Sünnədə gələn və heç bir ehtimalın daxil olmadığı nasslarla sabit olub və onların kafir olmadığını düşünmək yaxud onların küfründə şübhə etmək Quranı və Sünnəni rədd etmək anlamına gəlir.**

**Məlum olur ki, kafiri təkfir etməyənin küfrü, nassları rədd etmək və yalanlamaq yönündən küfr sayılır. Nasslar isə Quran və Sünnədə gələn açıq-aydın dəlillərə deyilir, bir sıra ehtimallar daşıyan sözlərə deyilmir.**

**Həmçinin Əhli-Sünnə alimlərinin müəyyən olaraq təkfirinə icma etdikləri İslama mənsub şəxslərin təkfirində duran, habelə Əhli-Sünnənin tayfa olaraq təkfir etdiyi tayfaların təkfirində duran şəxs, qəti icmanı rədd etmiş sayılır. Ancaq öncə qeyd edildiyi kimi tayfaların bəzi avamlarına, onların cahalətini yaxud onların aldanmış olduqlarını üzr gətirən şəxs, bu qaydaya daxil deyil.**

**Ali əl-Xudeyr Nəvaqidul isləm kitabına şərhi olan "əl-Muzəkkira"nın sonunda buyurur:**

**أما لو تأول في الأمور المختلف فيها كمسألة من لم يكفر المشركين فلم يكفر طائفة قام بها الشرك متأولا فإنه لايكفر كما لو تأول عدم كفر عوام الرافضة فإنه يعذر بتأويله ولا يعتبر ناقضا**

**“Əgər biri ixtilaflı məsələlərdə təvil etsə, misal üçün müşrikləri təkfir etmək məsələsində olduğu kimi, təvil edərək şirk üzərə olan tayfanı təkfir etməsə, (yəni onların avamlarını) bu halda o kafir olmur. Misal üçün əgər avam rafizilərin kafir olmadığını təvil etsə, bu halda həmin şəxs təvili üzündən üzürlü olacaq və bu hal İslamı pozan amil hesab edilməyəcək.”**

**Həmin qaydanı doğru anlamaq üçün sələfin tətbiqatına nəzər yetirmək kifayətdir. Yəni sələf alimləri bu qaydanı necə anlayıblar və onu necə tətbiq ediblər. Bu halda, sonraki əsrlərdə yaşamış alimlərin sözlərini nəql etməyə heç ehtiyac belə qalmır. Halbuki başqa dövrlərdə yaşamış alimlər də, bu məsələdə Əhli-Sünnənin üsullarına müxalif olmamışlar.**

**Belə ki, sələf imamları bu qaydanı cəhmiyyə firqəsi haqda danışarkən qeyd etmişlər.**

**Cəhmiyyə firqəsi isə sələfin qatında kafir bir tayfa hesab edilmişdir. Yəni Allahın sifətlərini tə`tıl edən, Quranın məxluq olduğunu deyən və digər küfr etiqadlara sahib olan cəhmiyyə firqəsi Əhli-Sünnənin icması ilə kafir tayfa hesab edilmişdir.**

**Süleyman ibn Səhman “Kəşfuş şubhateyn” risaləsində buyurur ki:**

**أما الجهمية و عباد القبور فلم يختلف العلماء في تكفيرهم**

**“Alimlər cəhmiyyə firqəsinin və qəbirpərəstlərin təkfirinə dair ixtilaf etməmişlər.”**

**Şeyxul-İslam İbn Teymiyyə, İbnul Qayyim və digər Əhli-Sünnənin alimləri qeyd etmişlər ki, muattıl, yəni Allahın sifətlərini inkar edən bütlərə tapınanlardan daha şərlidir. Yəni onların bu haqda sözləri həddindən artıq çoxdur.**

**Həmin qayda daha çox imam Əhmədin dönəmində yayğın şəkildə istifadə edilmişdir. Sələf alimləri Quranın məxluq olduğunu deyən cəhmiyyə firqəsi haqda danışdıqları zaman bu qaydanı qeyd edirdilər. Cəhmiyyə də, deyildiyi kimi “muattılə” firqəsi idi. Yəni onlar Allahın sifətlərini tə`tıl edirdilər, yəni inkar edirdilər. Sələf alimləri isə muattıl birisinin bütpərəstdən daha kafir və şərli olduğunu deyirdilər. Həmin firqənin təkfir edilməsinə səbəb isə, onların Allahın sifətlərini tə`tıl etmələri olmuşdu.**

**Osman əd-Dərimi cəhmiyyənin təkfir edilməsinə səbəb kimi, onların Allahın sifətlərini tə`tıl etmələrini göstərmişdir.**

**Əlxsus da İmam Əhmədin və digər sələf alimlərinin dönəmində cəhmiyyə, Quranın məxluq olduğunu iddia edənlərə deyilirdi.**

**İbn Rəcəb əl-Hənbəli "fəthul bəri" adlı əsərində buyurur ki:**

**و الجهمي عنده من يقول القرآن مخلوق فإنه كافر**

**"İmam Əhmədə görə cəhmi, Quranın məxluq olduğunu deyəndir. Beləsi də, kafirdir."**

**Misal olaraq bəzi sələf alimləri bu qaydanı mütləq olaraq qeyd etmişlər:**

**İmam Əbu Bəkr ibn Ayyəş buyurur ki:**

**من قال القرآن مخلوق فهو كافر و من شك في كفره فهو كافر**

**"Kim desə ki, Quran məxluqdur, kafirdir. Onun küfründə şübhə edən də, kafirdir."**

**Həmçinin "Tabaqatul hənəbilə" kitabında gəlir ki, İmam Əhməd belə dedi:**

**من قال المخلوق فهو كافر بالله العظيم و من لم يكفره فهو كافر**

**"Kim desə ki, Quran məxluqdur, kafirdir. Onu təkfir etməyən də, kafirdir."**

**Habelə Yəzid ibn Harun, Sufyən ibn Uyeynə, Əbu Xeysəmə, Ziyəd ibn Əyyub və digər sələf alimləri bu qaydanı mütləq olaraq qeyd etmişlər.**

**Mütləq olaraq deyildikdə, yəni həmin qaydanı heç bir qeyd zikr etmədən dilə gətirmişlər. Lakin sələf alimləri həmin qaydanı müəyyən qeydlərlə digər yerlərdə izah etmişlər.**

**Sələf imamları cəhmiyyə firqəsini təkfir etməyən şəxslərin təkfiri haqda danışdıqları zaman elm şərtini qoyurdular. Yəni Quranın məxluq olduğunu deyən adamları təkfir etməyənlərə onun cahil olmamasını və bu**

**haqda bilgiyə sahib olmasını şərt qoyurdular. Halbuki Şeyxul-İslam İbn Teymiyyə buyurur ki, sələfin dönəmində Allahın sifətlərini tə`tıl etmək, qapalı məsələlərdən deyildi və dindən zəruri bilinən elm hesab edilirdi.**

**İki böyük sələf alimi Əbu Hatim ər-Razi və Əbu Zur`a ər-Razi "usulus sunnə va`tiqadud din" adlı risalədə sələfin etiqadı icmalarını nəql etmişlər. Həmin risalə "Aqidətur raziyeyn" də adlanır.**

**Həmin risalədə Abdur-Rahmən ibn Əbu Hatim belə deyir:**

**سَأَلْتُ أَبِي وَأَبَا زُرْعَةَ عَنْ مَذَاهِبِ أَهْلِ السُّنَّةِ فِي أُصُولِ الدِّينِ , وَمَا أَدْرَكَا عَلَيْهِ الْعُلَمَاءَ فِي جمِيعِ الْأَمْصَارِ , وَمَا يعَتَقِدَانِ مِنْ ذَلِكَ , فَقَالَا: أَدْرَكْنَا الْعُلَمَاءَ فِي جمِيعِ الْأَمْصَارِ حِجَازًا وَعِرَاقًا وَشَامًا وَيَمَنًا فَكَانَ مِنْ مَذْهَبِهِمُ**

**"Atamdan və Əbu Zur`adan dinin üsullarına dair Əhli-Sünnənin görüşləri haqda, habelə bütün ölkələrdə alimlərə hansı etiqad üzərə rast gəldiklərini soruşdum: Onlar isə dedilər: Bütün ölkələrdə, Hicazda, İraqda, Şamda, Yəməndə olan alimlərə rast gəldik. Onların görüşləri isə bu olmuşdur:**

**من زعم أن القرآن مخلوق فهو كافر بالله العظيم كفرا ينقل عن الملة و من شك في كفره ممن يفهم و لا يجهل فهو كافر**

**"Quranın məxluq olduğunu iddia edən, İslam dinindən çıxardan küfrü işlətmiş kafirdir. Onun küfründə şübhə edən şəxs də, məsələni anlayan və cahil olmayan birisidirsə, o da kafirdir."**

**Habelə Buxari "Xalqu əf`alil ibəd" kitabında buyurur:**

**نظرت في كلام اليهود و النصاري و المجوس فما رأيت أضل في كفرهم منهم و إني لأستجهل من لا يكفرهم إلا من لا يعرف كفرهم**

**"Mən yəhudilərin, nəsranilərin və məcusilərin sözlərinə nəzər yetirdim və cəhmiyyələrdən küfrdə daha çox azmış olanı görmədim. Həqiqətən, mən onları təkfir etməyənin cahil olduğunu hesab edirəm. Onların küfrünü bilməyən şəxs istisnadır."**

**Həmçinin bu sözləri Əb Ubeyd əl-Qasim bin Səlləm demişdir.**

**Əbuş Şeyx əl-Əsbahani "əl-Huccə fi bəyənil məhəccə"də demişdir:**

**من شك في كفر من قال القرآن مخلوق بعد علمه و بعد أن سمع من العلماء المرضيين ذلك فهو مثله**

**"Kim elm əldə edəndən sonra və salamat alimlərdən bu haqda eşitdikdən sonra Quranın məxluq olduğunu deyənin küfründə şübhə etsə, onun mislində olacaq."**

**Habelə sələf imamlarından bu tərzə gələn digər sözlər də, mövcuddur.**

**Göründüyü kimi bu qayda sələf imamlarının qatında sabit qaydalardan olmuşdur. Onlar Quranın məxluq olduğunu deyən cəhmiyyələrin kafir olmasını qeyd edirdilər. Həmçinin anlayan və cahil olmayan şəxs olması şərtilə, onların küfründə şübhə edənlərin də, kafir olduğunu qeyd edirlər. Lakin burada deyildiyi kimi cəhmiyyəni mütləq olaraq təkfir etməyən şəxslər üçün elm və fəhm şərti qoyulur. Onların kafir olduğunu deyib bəzi avam və cahillərində dayananların hökmü isə fərli olmuşdur.**

**Bəlli olur ki, sələf imamları kafiri təkfir etməyən şəxsin təvilini və cəhalətini təkfir üçün maneə olaraq qəbul etmişlər. Yəni bu cür şəxsin təkfir edilməsi və onun nassları yalanladı deyilməsi üçün mütləq onun üzərindən hüccətin qalxmasını şərt qoymuşlar, yəni həmin maneələrin aradan qalxmasını şərt qoymuşlar.**

**Ümumiyyətlə sələf imamları cəhmiyyəni təkfir etməyən şəxsləri hər cəhətdən yəhudi və nəsraniləri təkfir etməyən şəxs mislində etməmişlər. Halbuki cəhmiyyənin dedikləri sözlər yəhudi və nəsranilərin sözlərindən daha şərli olmuşdur.**

**"Əl-Huccə fi tərikil məhəccə:2/484" kitabında gəlir ki, Əbul Qasim Süleyman Tabarani belə demişdir:**

**من قال إنه مخلوق فهو شر من اليهود و النصاري و عبدة الأوثان و ليس من أهل التوحيد المخلصين الذين أدخلهم الله النار عقوبة منه لأعمالهم استوجبوا بها النار ... و من زعم أن من يقول يخرج من النار فهو كافر كمن زعم أن اليهود و النصاري يخرجون من النار**

**“Kim desə ki, Quran məxluqdur belə birisi yəhudi, xacpərəst və bütpərəstlərdən daha şərlidir və ixlaslı tövhid əhlindən deyil. O kəslər ki, Allah onları günahların cəzası olaraq cəhənnəmə salmışdır. Əgər biri iddia etsə ki, Quranın məxluq olduğunu deyən cəhənnəmdən çıxacaq, kafir olacaq. Çünki o, yəhudilərin və nəsranilərin cəhənnəmdən çıxacağını iddia edən mislindədir.”**

**Habelə imam Ubeyd əl-Qasim ibn Səlləm buyurdu:**

**من قال هذا فليس شيء من الكفر إلا وهو دونه ومن قال هذا فقد قال على الله ما لم يفعله اليهود والنصارى ومذهبه التعطيل للخالق**

**“Kim bunu desə (yəni Quranın məxluq olduğunu və Allahın danışmadığını desə), küfrdən heç bir şey bu (küfrdən) daha böyük olmayacaq. Kim də bunu desə, Allahın adına yəhudilər və nəsranilərin etmədiyi şeyi demiş olacaq və onun məzhəbi Yaradanı tə`tıl etməkdir (inkar etməkdir).**

**Həmçinin Lələkəi “Usulul i`tiqad” kitabında Əbu Xeysəmə adlı ravinin belə dediyini nəql edir:**

**سمعت ابن المبارك و موسى بن أعين يقولان: من قال القرآن مخلوق فهو كافر أكفر من هرمز**

**“Abdullah ibn Mubarəkin və Musa ibn Ə`yunun belə dediklərini eşitdim: Kim desə ki, Quran məxluqdur o kafirdir, hətta Hərmuzdan daha kafirdir.”**

**Hərmuz isə fars məcusilərinin başçısı olub.**

**Habelə sələfin dönəmində Quranın məxluq olmadığını demək, lə iləhə illəllah tövhid kəlməsini demək mislində idi.**

**Əcurri “əş-Şəria” kitabında buyurur:**

**حدثنا الفضل بن زياد قال: سألت أبا عبد الله عن عباس النرسي فقلت: كان صاحب سنة؟ فقال: رحمه الله، قلت: بلغني عنه أنه قال: ما قولي: القرآن غير مخلوق إلا كقولي لا إله الا الله، فضحك أبو عبد الله و سر بذلك، قلت: يا أبا عبد الله أليس هو كما قال؟ قال: بلي**

**“Fadl ibn Ziyəd bizə təhdis edib dedi: Əbu Abdullahdan (imam Əhmədən) Abbas Nərsi haqda soruşub dedim: Sünnə sahibi idi? O isə: Allah ona rəhmət eləsin!-dedi. Dedim: Mənə çatan məlumata görə o belə demişdir: Quranın məxluq olmadığını deməyim eynilə lə iləhə illəllah deməyim kimidir. Əbu Abdullah bunu eşitdikdə güldü və buna sevindi. Mən dedim: Ey Abu Abdullah! Məgər onun dediyi kimi deyil? O isə: Onun dediyi kimidir!-deyə cavab verdi.”**

**Lakin cəhmiyyənin təkfirində duran şəxsə küfr hökmünü endirmək məsələsi, yəhudilər və nəsraniləri təkfir etməyənə endirilən hökmdən fərqlidir, çünki bu məsələni hər adam anlamır.**

**Cəhmiyyə firqəsinin küfr üzərə olduğunu etiraf edib, onların bəzi avamları və cahillərində duran şəxslər haqda isə imamların sözləri fərqli olmuşdur.**

**İbn Muflih “əl-Furu`” kitabında buyurur:**

**وَقَوْلَ الْمَرُّوذِيِّ لِأَبِي عَبْدِ اللَّهِ : إنَّ قَوْمًا يُكَفِّرُونَ مَنْ لَا يُكَفِّرُ فَأَنْكَرَهُ وَقَوْلُهُ فِي رِوَايَةِ أَبِي طَالِبٍ : مَنْ يَجْتَرِئُ أَنْ يقَولَ إنَّهُ كَافِرٌ؟ يعَنِي مَنْ لَا يكفر وَهُوَ يَقُولُ : الْقُرْآنُ لَيْسَ بِمَخْلُوقٍ**

**“Mərruzi Əbu Abdullaha (yəni imam Əhmədə) deyir ki, bəzi adamlar təkfir etməyənləri (yəni cəhmiyyəni təkfir etməyənləri) təkfir edirlər. İmam Əhməd isə buna, yəni cəhmiyyənin təkfirində duran şəxsin təkfir edilməsinə irad tutdu.**

**Əbu Talibin rəvayətində isə Əhməd belə deyir: Ona kafir deməyə kim cürət etdi! Yəni Quranın məxluq olmadığını dediyi halda onları təkfir etməyən şəxsə kafir deməyə kim cürət etdi?!.”**

**Həmçinin Qadı Əbu Yə`lə “əl-Məsəilul aqadiyyə minər rivayəteyn val vacheyn” kitabında buyurur:**

**نقل المروذ ي و يعقوب بن بختان و أبو طالب : لا يكفر. و قال في رواية أبي طالب: من قال القرآن مخلوق فهو كافر و من قال لا يكفر من قال القرآن مخلوق فلا يكفره , و كذلك نقل المروذي في قوم بطرطوس يكفرون من لا يكفر فقال: ما سمعت في هذا شيئاً**

“Mərruzi və Yəqub ibn Bixtən və Əbu Talib nəql edirlər ki, bu cür şəxs (yəni təkfir etməyən) təkfir edilmir. Habelə Əbu Talibin rəvayətində deyir: Quranın məxluq olduğunu deyən kafirdir. Kim desə ki, Quranın məxluq olduğunu deyən təkfir edilmir, beləsi təkfir edilməz. Habelə Mərruzi nəql edir ki, Tartus ərazisində olan bəzi adamlar təkfir etməyənləri təkfir edirdilər. Əhməd dedi: Mən belə bir şey eşitməmişəm.”

Sonra Əbu Yə`lə imam Əhmədin sözünə açıqlama gətirib deyir:

و هذا علي طريق التوكيد بمعرفة شيء في تكفيرهم فكأن مذهبه أنهم يكفرون و لا يكفر من لا يكفرهم فظاهر هذا أنه لم يكفرهم كما نقله أبو طالب

“Əslində bu sözlər, onların təkfir edilməsi haqda bilgini gücləndirən üslubda gəlmişdir. Sanki onun məzhəbi onların təkfir edilməsidir (yəni cəhmiyyə firqəsinin). Lakin onları təkfir etməyənlərin təkfir edilməməsidir. Burada üstün olan da, Əbu Talibin nəql etdiyi kimi onların təkfir edilməməsidir.”

Hənbəli məzhəbinin təhqiqçi alimlərindən əl-Mərdəvi “əl-İnsaf” kitabında digər Hənbəli alimi imam Əbu Abdullah ibn Hamid əl-Hənbəlinin belə dediyini nəql edir:

من لم يكفر من كفرناه فسق و هجر و في كفره وجهان

“Kim bizim təkfir etmədiyimizi təkfir etməsə, təfsiq edilər və kənar tutular. Onun küfründə isə iki görüş vardır.”

Əslində İmam Əhmədin və digər sələf alimlərinin sözlərində ziddiyət yoxdur. Çünki burada söhbət müəyyən şəxslərin təkfirində duranlardan gedir. Digər rəvayətlər isə ümumi hökm haqda bəhs edir.

Həmçinin Şeyxul-İslam İbn Teymiyyə -rahiməhullah- “əl-fətəva” da buyurur:

و عنه في تكفير من لا يكفر روايتان أصحهما لا يكفر

“İmam Əhməddən təkfir etməyənlərə dair iki rəvayəti vardır. Ən səhih olanı, onların təkfir edilməməsidir.”

**Aşırı təkfirçilər sələfin bu sözləri önündə aciz qaldıqları zaman deyirlər ki: Sələfin bu sözləri Allahın sifətlərini inkar edən cəhmilər haqdadır, biz isə şirk haqqında danışırıq.**

**Bu sözün batil bir iddia olması gün kimi aydındır. Çünki Allahın sifətlərini inkar edən cəhmilər sələf imamlarının qatında qəbirə yaxud bütə ibadət edəndən daha şərli hesab edilmişlər.**

**Üstəlik sələf alimləri Quranın məxluq olduğunu deyən və Allahın sifətlərini tə`tıl edən cəhmiyyələrin Allahdan qeyrisinə ibadət edən müşrik olduqlarını qeyd edirlər.**

**İmam Osman əd-Dərimi "ər-raddu aləl cəhmiyyə" əsərində buyurur:**

**فمن لم يقصد بإيمانه و عبادته إلي الله الذي استوي علي العرش فوق سمواته و بان من خلقه فإنما يعبد غير الله**

**"İmanı və ibadəti ilə səmaların fövqündə ərşinə isteva edən və öz məxluqatı xaricində olan Allaha yönəlməyən şəxs yalnız Allahdan qeyrisinə ibadət edir."**

**İmam İbn Xuzeymə təlif etdiyi "kitəbut-təuhid"də buyurur:**

**من كان معبوده غير سميع بصير فهو كافر بالله السميع البصير و يعبد غير االخابق البارئ الذي سميع بصير**

**"O kəs ki, onun məbudu eşitməyən və görməyəndir, beləsi eşidən və görən Allaha küfr edib kafir olur və yaradan Allahdan qeyrisinə ibadət edir. Çünki yaradan eşidəndir, görəndir."**

**Həmçinin Abdullah ibn Əhməd ibn Hənbəl "əs-Sünnə" kitabında buyurur:**

**من زعم أن الله عز و جل لا يتكلم فهو يعبد الأصنام**

**"Allahın danışmadığını iddia edən şəxs, bütlərə ibadət edir."**

**Həmçinin sələf alimlərindən olmuş Muhamməd ibn Əsləm ət-Tusi “ər-raddu aləl cəhmiyyə”də, cəhmilərin müşrik olma səbəblərini qeyd edərək buyurur:**

**زَعَمَتِ الجَهْمِيَّةُ أَنَّ الْقُرْآنَ مَخْلُوقٌ وَقَدْ أَشْرَكُوا فِي ذَلِكَ وَهُمْ لَا يعَلَمُونَ لِأَنَّ اللَّهَ تَعَالَى قَدْ بيَّنَ أ نَّ لَهُ كَلَامًا فَقَالَ إِنِّي اصْطَفَيْتُكَ عَلَى النَّاسِ بِرِسَالَاتِي وَبِكَلَامِي وَقَالَ فِي آيَةٍ أُخرى وَكَلَّمَ اللَّهُ مُوسَى تَكْلِيمًا فَأَخْبَرَ أَنَّ لَـهُ كَلَامًا وَأَنَّه كَلَّمَ مُوسَى عَلَيْهِ السَّلَامُ فَقَالَ فِي تَكْلِيمِهِ إِيَّاه: يَا مُوسَى إِنِّي أَنَا رَبُّكُ فَمَنْ زَعَمَ أَنَّ قَوْلَه : يَا مُوسَى إِنِّـي أَنَا رَبُّكُ خَلْقٌ وَلَيْسَ بِكَلَامِهِ فَقَدْ أَشْرَكَ بِاللَّهِ لِأَنَّهُ زَعَمَ أَنَّ خَلْقًا قَالَ لِمُوسَى :إِنِّي أَنَا رَبُّكُ، فَقَدْ جَعَلَ هَذَا الزَّاعِمُ رَبًّا لِمُوسَى دُونَ اللَّهِ**

**“Cəhmiyyə iddia etmişlər ki, Quran məxluqdur. Bununla, özləri də bilmədikləri halda Allaha şərik qoşmuşlar. Çünki Uca Allah Özünün kəlam sahibi olduğunu bəyan edib buyurur: *“Mən vəhy etdiyim risalətlərlə və kəlamımla səni seçib insanlardan üstün etdim.”* Habelə digər ayədə buyurur: *“Və Allah Musa ilə sözlə danışdı.”* Uca Allah xəbər verir ki, O Musa ilə sözlə danışmışdı. Uca Allah Musa ilə danışdıqda bu sözləri demişdir: *“Ey Musa, Mən sənin Rəbbinəm!”* Buna görə əgər biri iddia etsə ki, Quranda gələn *“Ey Musa, Mən sənin Rəbbinəm sözləri!”*- məxluqdur və Allahın kəlamı deyil, Allaha şərik qoşmuş olacaq. Çünki beləsi iddia edir ki, məxluq Musaya; mən sənin Rəbbinəm demişdir. Bu halda həmin şeyi iddia edən Musaya Allahla yanaşı Rəbb etmişdir.”**

**Habelə əl-Qahtani öz Nuniyyəsində buyurur:**

**من قال إن الله خالق قوله    فقد استحل عبادة الأوثان**

**“Kim desə ki, Allah öz kəlamını yaratmışdır...Beləsi bütlərə ibadəti halal etmişdir.**

**Habelə İbn Batta “əl-İbənə” kitabında cəhmiyyə firqəsinin müşrik olduqlarını qeyd etmişdir.**

**Bəlli olur ki, cəhmiyyə sələfin qatında müşrik hesab edilmişlər, üstəlik qeyd edildiyi kimi cəhmi muattıl, qəbirə tapınan yaxud bütə tapınandan daha şərli hesab edilmişdir. Həmçinin sələf və imamlar, həm cəhmiyyə firqəsinin həm də qəbirpərəstlərin təkfirinə dair icmanın olmasını demişlər. Buna rəğmən sələfin tətbiqatına nəzər yetirdiyimiz**

**zaman müəyyən səbəbdən ötrü onların təkfirində duranları alimlər dərhal təkfir etməmişlər. Çünki onların dayanması nassları təkzib etməyi ifadə etmir. Üstəlik alimlər cəhmilərin bəzi növləri olan vaqifə yaxud ləfziyyənin cahillərini bir-başa təkfir etmirdilər, qaldı ki, cəhmilərə üzr gətirən şəxslər bir-başa təkfir olsun.**

**Belə ki, İmam Əhmədin şagirdi Harb əl-Kirmani öz şeyxlərinin etiqadını bəyan etdiyi kitabda buyurur: (Onun şeyxləri isə, Əhməd ibn Hənbəl, İshaq ibn Rahaveyhi, Abdullah əl-Humeydi və Səid ibn Mənsur kimi məşhur sələf imamlarıdır)**

**القرآن كلام الله تكلم به ليس بمخلوق فمن زعم أن القرآن مخلوق فهو جهمي كافر و من زعم أن القرآن كلام الله و وقف و لم يقل ليس بمخلوق فهو أكفر من الأول و أخبث قولا و من زعم إن ألفاظنا بالقرآن و تلاوتنا له مخلوقة و القرآن كلام الله فهو جهمي خبيث مبتدع. و من لم يكفرها و لا القوم و لا الجهمية كلهم فهو مثلهم**

**"Quran Allahın kəlamıdır, Allah onu danışmışdır və o məxluq deyil. Kim iddia etsə ki, Quran məxluqdur, beləsi kafir cəhmidir. Həmçinin kim iddia etsə ki, Quran Allahın kəlamıdır lakin durub onun məxluq olmadığını deməsə, beləsi birincidən daha kafir və dediyi söz baxımından daha xəbisdir. Kim iddia etsə ki, Quranı oxuduğumuz zaman sözlərimiz və tilavətimiz məxluqdur, ancaq Quran Allahın kəlamıdır, belə birisi xəbis və bidətçi cəhmidir. Kim bunları və bütün cəhmiyyəni təkfir etməsə, o da onların mislindədir."**

**Harb əl-Kirmani burada cəhmiyyənin üç qism insanlarını qeyd edir. Quranın məxluq olduğunu deyənlər. Bunlara məxluqiyyə deyilmişdir. Quranın məxluq olmadığını deməyənlər, bunlar isə vaqifə adlanmışlar. Habelə Qurandan oxuduğumuz sözlərin məxluq olduğunu deyənlər. Bunlar da, ləfziyyə adlanmışlar. Harb əl-Kirmani bunların hamısının kafir cəhmiyyə olduqlarını deyir. Daha sonra onları təkfir etməyənlərin də onlar mislində olduğunu qeyd edir.**

**İndi isə sələf alimlərinin bu qaydanı necə tətbiq etdiklərinə nəzər salaq:**

**Məlumdur ki, sələf alimləri həm cəhmiyyə firqəsinin həm də qəbirpərəstlərin küfrünə dair icmalar nəql etmişlər. İbnul-Qayyim "əl-Kəfiyə"də beşyüzə yaxın alimin onların təkfirinə dair icmanı nəql edir.**

**Sələfin icmalarını nəql edən "Aqidətur Raziyyeyn"də belə gəlmişdir:**

**و من وقف في القرآن جاهلا علَم و بدَع و لم يكفَر**

**"Əgər biri cahilliyindən dolayı Quranda durarsa beləsi öyrədilər və təbdi` edilər ancaq təkfir edilməz."**

**Diqqət yetirsən, burada vaqifə qisminə aid olan cəhmilərin avamlarının təkfir edilməsi üçün elm şərti qoyulur. Halbuki qeyd edildiyi kimi sələf cəhmilərin tayfa olaraq kafir olduqlarını demişlər. Üstəlik onların küfründə şübhə edənlərin də təkfir ediləcəyini demişlər. Ancaq tayfa olaraq təkfir edilməsi o demək deyil ki, onların müəyyənləri təkfir edilməmişdir. Təbii ki, müəyyənlər də təkfir edilmişlər və buna sələfin sözlərindən çoxlu nümunələr vardır. Ancaq deyildiyi kimi bəzi qism insanlara, xüsusi olaraq onların bəzi avamları və cahillərinə öncə hüccət çatdırılmışdır. Çünki həmin avam və cahillər bu küfrləri dilə gətirir ancaq dedikləri sözlərin fərqinə varmırdılar.**

**Habelə Abdullah ibn imam Əhməd "əs-Sünnə" əsərində buyurur:**

**سمعت أبي رحمه الله و سئل عن الواقفة فقال أبي: من كان يخاصم و يُعرف بالكلام فهو جهمي و من لم يُعرف بالكلام يجانبْ حتي يرجع و من لم يكن له علم يسأل**

**Abdullah buyurur ki, atama vaqifə (yəni cəhmilərin bir növü) haqda sual verdilər. Atam isə belə dedi: "Əgər biri mücadilə edirsə və kəlamla tanınırsa, beləsi cəhmidir. Ancaq əgər kəlamla tanınmırsa, tövbə edib qayıdana qədər ondan kənar durulur. Elmi olayan şəxs isə soruşsun."**

**Həmçinin Abdullah nəql edir ki:**

**سئل أبي رحمه الله و أنا أسمع عن اللفظية و الواقفة فقال: من كان منهم جاهلا ليس بعالم فليسأل و ليتعلم**

**"Atama "ləfziyyə və vaqifə (cəhmilərin bu iki növü) haqda sual verildi və məndə bunu eşidirdim. O dedi: Onlardan elmi olmayan cahil kimsə soruşsun və öyrənsin!"**

**Həmçinin İmam Əhmədə böyük sələf alimi Əbu Səurun ləfziyyə haqda sözləri nəql edildi, yəni Əbu Səur onların bidətçi olduğunu deyirdi. İmam Əhməd onun sözünə irad tutdu ancaq onu təkfir etmədi.**

**Göründüyü kimi sələf imamları nəinki cəhmiləri təkfir etməyənləri, heç vaqifə və lafzıyyə qimsinə aid edilən cəhmiyyələrin avamlarını belə, elm çatdırmadan təkfir etmirdilər. Elə isə, cəhmiyyələrin avamlarından olan vaqifi yaxud lafzi təkfir edilməyə daha layiqdir yoxsa cəhmilərin təkfirində duran şəxs?!**

**Belə olan halda İslamın səhih olması üçün təkfiri dinin əsli edən müasir xəvariclərin etiqadı İmam Əhmədin, İbn Teymiyyənin, İbn Hamidin, Qadı Əbu Yələnin və digər imamların kafir olmalarını gərəkdirir.**

**Çünki qeyd edildiyi kimi sələf imamları cəhmiyyənin bütə ibadət edənlərdən daha şərli olduqlarını və onların müşrik bir tayfa olduqlarını deyirdilər. Buna rəğmən təkfir məsələsində qeyd olunan təfsilata uyğun hərəkət edirdilər.**

**Həmçinin qeyd etmək lazımdır ki, bu məsələdə mütləq təkfirlə müəyyən təkfir arasında ayırmaq, həmin firqənin fərdlərinin təkfir edilmədiyini ifadə etməz. Yəni növ təkfir olunur deyib ümumiyyətlə fərdlərə hökmün endirilməyəcəyini ifadə etməz. Çünki sələf imamları cəhmiyyə firqəsinin fərdlərini təkfir edirdilər. Ancaq deyildiyi kimi bəzi avamlarına elm şərtini qoyurdular. Çünki müəyyən şəxsin təkfir edilməsi, məlum olduğu kimi ictihadi məsələdir. Hansısa alimin küfrə yaxud şirkə düşmüş müəyyən bir adamın təkfirində hər hansı səbəbdən durması, onun təməldən cəhaləti üzr gördüyünü də ifadə etməz. Yəni sələfin "cəhmiyyə kafirdir" deməsi həmin firqəyə mənsub olan bəzi fərdlərin onların qatında üzürlü olmadıqlarını ifadə etməz. Necə ki, buna dair bir sıra nümunələr göstərildi. Çünki bu cür təkfir, mütləq təhdid mislindədir. Yəni nasslarda gəldiyi kimi "kim belə etsə, cəhənnəmə düşəcək." Ancaq bu sözlər bəzi fərdlərin üzürlü olmalarını mümkünsüz etmir.**

**Buna misal olaraq Nəcd alimlərini göstərmək olar. Məlum olduğu kimi Nəcd alimləri qəbirpərəstlərin şirki və cəhmiyyələrin tə`tıli kimi şeylərdə cəhaləti üzr görmürdülər və onlar bunu öz kitablarında açıq şəkildə qeyd ediblər. Ancaq şirk üzərə olan bəzi müəyyən insanlara küfr**

hökmünü çıxartmamışlar və onlara müsəlman hökmü vermişlər. Bu da, onların kitablarında mövcuddur. Çünki qeyd edildiyi kimi İslamda olub daha sonra şirk yaxud küfr edən müəyyən bir şəxsə mürtəd hökmünü çıxartmaq elmi, ictihadi məsələdir.

Şeyx Muhamməd ibn Abdul-Vahhəbin övladlarından biri olmuş şeyx Abdullah ibn Muhamməd ibn Abdul-Vahhəb "əd-Durarus səniyyə" kitabının birinci cildi 236-cı səhifəsində quburilərin imamlarından sayılmış İbn Həcər əl-Heytəmi haqda buyurur:

و نحن كذلك لا نقول بكفر من صحت ديانته و شهر صلاحه و علم ورعه و زهده و حسنت سيرته و بلغ من نصحه لأمة ببذل نفسه لتدريس العلوم النافعة و التآيف فيها, و إن كان مخطئا في هذه المسألة أو غيرها كابن حجر الهيتمي فإنا نعرف كلامه في الدر المنظم و لا ننكر سعة علمه, و لهذا نعتني بكتبه كشرح الأربعين و الزواجر و غيرها و نعتمد علي نقله إذا نقل لأنه من جملة علماء المسلمين

"Həmçinin biz dini səhih olan, salehliyi məşhurlaşan, habelə təqvası və zahidliyi ilə tanınan, gözəl həyat tərzi keçirdən və ümmətə faydalı elmləri tədris etməklə və elmləri qələmə almaqla fədakarlıq göstərən şəxslərin kafir olduğunu demirik. Hətta İbn Həcər əl-Heytəmi kimi bu və digər məsələlərdə xəta etmiş olsa. Biz onun "əd-Durrul Munəzzam" kitabında dediyi sözləri bilirik. Buna rəğmən onun geniş elmini inkar etmirik. Buna görə də, qırx hədis, əz-Zəvacir və digər kitablarını öyrənir ona böyük önəm veririk və nəql etdikdə onun nəqillərinə etimad edirik. Çünki o ümum müsəlmanların alimlərindəndir."

Göründüyü kimi Abdullah ibn Muhamməd ibn Abdul-Vahhəb İbn Həcər Heytəmiyə müsəlman hökmü verir və onu təkfir etmədiklərini dilə gətirir. Həmçinin bunun Nəcd imamlarının sözü olduğunu deyir. Çünki həmin nəqildə "biz deyirik", deyə ifadə edir. Heytəminin "əd-Durrul Munəzzam" adlı kitabında dediyi sözlər haqda xəbərdar olduğunu da, qeyd edir. Heytəmi "əd-Durrul Munəzzam" həmçinin "əl-Cəuharul Munəzzam" adlanan həmin kitabda şirk olan təvəssülün və istiğasənin müstəhəb olduğunu deyir.

Şəmsuddin əl-Əfğani İbn Həcər əl-Heytəmi haqda buyurur ki:

**أحد كبار أئمة القبورية**

**“Qəbirpərəstlərin ən böyük imamlarından biridir.”**

**Bəlli olur ki, həmin qayda sələfin, habelə onlardan sonra gələn imamların fəhminə və tətbiqatına uyğun anlaşılmalıdır elmdən məhrum olan cahillərin və sapmış təkfirçilərin dediyinə uyğun deyil.**

**P.S. Bu məqalədə sadəcə sələf imamlarından bu qaydaya dair bəzi sözləri nəql etdim. Allah Cəllə va Alə müyəssər etsə, həmin məsələ haqda digər məqalələrdə əlavə məlumat veriləcək.**

**Val-həmdulilləhi rabbil aləmin!**

Məqaləni hazırladı: Emil Cəfərli.